# Azərbaycan Mədəniyyət Mərkəzi Türkiyənin Atatürk Mədəniyyət Mərkəzi ilə birgə layihələr reallaşdıracaq



**Ölkəmizin Türkiyədəki səfirliyinin nəzdindəki Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Samir Abbasov Türkiyə Respublikası Mədəniyyət Turizm Nazirliyi Atatürk Mədəniyyət, Dil və Tarix Yüksək Qurumunun nəzdindəki Atatürk Mədəniyyət Mərkəzinin rəhbəri Zeki Eraslan ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, Ankarada Atatürk Mədəniyyət Mərkəzində keçirilən görüş zamanı Azərbaycan-Türkiyə qardaşlığı, mədəni əlaqələr, türk dünyasının ortaq dəyərləri, milli mədəniyyətin təbliği məqsədilə Türkiyədəki Azərbaycan Mədəniyyət Mərkəzi ilə Atatürk Mədəniyyət Mərkəzi arasında əməkdaşlıq müzakirə olunub və tərəflər arasında bu istiqamətdə yol xəritəsinin hazırlanması razılaşdırılıb.

Türkiyədəki Atatürk Mədəniyyət Mərkəzi tərəfindən həyata keçirilən "Türk dövləti və düşüncə həyatını formalaşdıran şəxsiyyətlərin qısa ömür hekayələri silsiləsi və tərcüməsi" adlı layihəyə Azərbaycanın tarixi şəxsiyyətlərinin, mütəfəkkirlərinin daxil edilməsi, Türkiyə tərəfinin yaratdığı uşaq ədəbiyyatı və nağılların təbliğinə dair onlayn portala Azərbaycanın qoşulması, türk dünyası və Şərqin böyük bayramı Novruz bayramı, onun adət-ənənələri ilə bağlı birgə layihələrin reallaşdırılması, Azərbaycana dair kitabların Türkiyədəki Atatürk Mədəniyyət Mərkəzinin kitabxanasına hədiyyə olunması ilə əlaqədar təkliflər müzakirə edilib, onların həyata keçirilməsinə dair birgə iş aparılması qərara alınıb.

Daha sonra Atatürk Mədəniyyət Mərkəzinin yeni binası, mərkəzin kitabxanası, konfrans və konsert sarayı, araşdırma mərkəzləri ilə tanışlıq olub, gələcəkdə birgə tədbirlərin, layihələrin reallaşdırılmasına dair fikir mübadiləsi aparılıb.

Azərbaycan.- 2025.- 4 fevral (№24).- S.13.